# Pakistanın Baş Naziri Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycana dəstəyini bildirib

Pakistan İslam Respublikasının Baş Naziri İmran Xan rəsmi "Twitter" səhifəsində etdiyi paylaşımda Azərbaycana dəstəyini ifadə edib.

AZƏRTAC xəbər verir ki, Baş Nazir paylaşımda bildirib: "Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidentinə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Ölkələrinin ərazi bütövlüyünü şücaətlə qoruyan Azərbaycan Silahlı Qüvvələrinə ehtiramımızı bildiririk. Pakistan Dağlıq Qarabağ məsələsinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllində Azərbaycanı dəstəkləyir".

Azərbaycan.- 2020.-20 oktyabr.- S.1.